# Sosial təminat və pensiya qanunvericiliyindəki kapital tələblərinin ləğv edilməsi və iş stajı əsasında Bərabərlik Hüququnun bərpa olunması tələbi barədə

1 сообщение

**Ava res** <hebilovtural1985@gmail.com>
Кому: nk@nk.gov.az

сб, 16 мая 2026 г. в 13:57

"Hörmətli Nazirlər Kabineti"

Bu müraciəti etməkdə məqsədim hər hansı fərdi imtiyaz, şəxsi güzəşt və ya müstəsna maliyyə təminatı əldə etmək deyil. Məqsədim, ölkəmizin sosial təminat sistemində tətbiq edilən qanunaltı aktların və daxili təlimatların Azərbaycan Respublikasının ali hüquqi qüvvəyə malik sənədi olan Konstitusiyaya zidd olmasını konkret hüquqi əsaslarla diqqətinizə çatdırmaq və bütün ölkə vətəndaşları üçün ədalətli qaydaların (bərabərlik hüququnun) bərpa olunmasını tələb etməkdir.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa və Dövlət Sosial Müdafiə Fondunun (DSMF) daxili icraat qərarlarına edilmiş dəyişikliklər rəsmi əmək stajı olan milyonlarla sıravi zəhmətkeşin qarşısına keçilməz süni maliyyə (kapital) sədləri qoyaraq, vətəndaşları qazanılmış iş stajı hüququndan məhrum edir.

Bu idarəçilik mexanizmi Azərbaycan Respublikası Konstitusiyasının aşağıdakı təməl maddələrini birbaşa pozur:

1. Konstitusiyanın 25-ci maddəsinin (Bərabərlik hüququ) kobud pozuntusu

Konstitusiyanın 25-ci maddəsinə əsasən, dövlət sosial mənsubiyyətindən və əməyin növündən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir.

Ziddiyyət: Mövcud pensiya sistemi vətəndaşlar arasında kəskin ayrı-seçkilik və sosial təbəqələşmə yaradır. Müəyyən imtiyazlı qruplar (dövlət qulluqçuları, millət vəkilləri, xüsusi rütbəli şəxslər) üçün pensiya təminatı xüsusi və yumşaq şərtlərlə həyata keçirildiyi halda, ömrünü istehsalatda, zavodlarda və ağır sahələrdə keçirən sıravi fəhlələrin qarşısına keçilməz kapital labirintləri qoyulur. Əvvəllər hamı üçün ümumi və ədalətli olan "iş stajı əsasında pensiyaya çıxmaq" hüququnun ləğv edilərək kapital şərtinə bağlanması sıravi vətəndaşları sosial cəhətdən məhrumiyyətə uğradır və bərabərlik prinsipini tamamilə sıfırlayır.

2. Konstitusiyanın 149-cu maddəsinin VII hissəsinin pozulması

Ali sənədin 149-cu maddəsinin VII hissəsində açıq şəkildə təsbit olunub: "Fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini ağırlaşdıran, rəsmi öhdəliklərini artıran və ya dəqiqləşdirən normativ hüquqi aktların qüvvəsi geriyə şamil edilə bilməz."

Ziddiyyət: Pensiya qanunvericiliyinə edilən dəyişikliklərlə yalnız iş stajı əsasında pensiyaya çıxmaq hüququ faktiki olaraq ləğv edilmiş, əvəzində isə ağır maliyyə öhdəlikləri və artan yaş hədləri gətirilmişdir. DSMF bu ağırlaşdırılmış yeni şərtləri geriyə şamil edərək, vətəndaşların qanun qəbul edilənə qədərki dövrlərdə qazandıqları qanuni əmək stajı prinsiplərini faktiki olaraq sıfırlamışdır. Qanunun bu cür geriyə şamil edilərək vətəndaşın vəziyyətinin ağırlaşdırılması birbaşa konstitusion pozuntudur.

3. Sosial Siyasətin Geriləməsi və "Uşaq Pulu"nun Ləğvi

Dövlətin sosial funksiyası hər bir vətəndaşın rifahını qorumaqdır. Əvvəllər hər bir uşağa görə verilən birbaşa "Uşaq pulu" müavinətinin tamamilə ləğv edilərək "Ünvanlı Dövlət Sosial Yardımı" (ÜDSY) sisteminə daxil edilməsi və qarşısına süni labirintlər qoyulması sosial dövlət prinsipinə zərbə vurmuşdur. Dövlət uşaqların birbaşa hüququ olan yardımı "yoxsulluq meyarı" adlı süni süzgəclə məhdudlaşdıra bilməz.

Konstitusiyanın 149-cu maddəsinin III hissəsinə əsasən, qanunlar və qanunaltı aktlar Konstitusiyaya zidd ola bilməz. Lakin bu gün aidiyyəti idarələrin daxili icraat qaydaları ölkənin Ali Qanunundan üstün tutulur.

Yuxarıda qeyd olunanları rəhbər tutaraq TƏLƏB EDİRƏM:

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununun və aidiyyəti qanunaltı aktların Azərbaycan Respublikası Konstitusiyasının 25, 38 və 149-cu maddələrinə uyğunluğu yenidən yoxlanılsın və dərhal tənzimlənsin.

Pensiya təminatında qanunun geriyə şamil edilməsi praktikasına son qoyulsun, vətəndaşların əvvəlki dövrlərdə qazandıqları əmək stajı hüquqları qeyd-şərtsiz bərpa edilsin.

Pensiya təyinatındakı və sosial yardımlardakı qəliz, vətəndaşı hüquqlarından məhrum etməyə yönəlmiş "kapital labirintləri" və süni limitlər ləğv edilsin, sistem hər bir sadə zəhmətkeş üçün əlçatan formaya gətirilsin.

Məsələ ilə bağlı ölkə daxilindəki bürokratik manevələri, konstitusiyaya əlavə edilən qanunları Konstitusiyanın əsas maddələrindən üstün tutaraq dövlət qurumlarının qanunsuz sükutunu sübut edən geniş xronoloji sənədlər toplusu (75-dən çox rəsmi müraciət) tərəfimdən Alman və İngilis dillərinə tərcümə edilərək rəsmən beynəlxalq hüquq təşkilatlarına (Avropa Parlamenti, Avropa İnsan Hüquqları Məhkəməsi Katibliyi, Almaniya Səfirliyi, GANHRI - Qlobal Milli İnsan Hüquqları İnstitutları Alyansı) təqdim edilmişdir. Eyni

zamanda, bu məsələni işıqlandırmağa yerli redaksiyaların cürət etməyəcəyini əsaslı şübhə edərək, bu sənədlər müxtəlif dillərə tərcümə olunaraq birbaşa xarici redaksiyalara ünvanlanmışdır. Mübarizəm fərdi bir qazanc üçün deyil, ölkədə qanunun aliliyinin və Konstitusiyanın hamı üçün bərpası üçündür.

Görülən hüquqi pozuntuların dərhal araşdırılmasını və tərəfimə mahiyyəti üzrə rəsmi cavab verilməsini tələb edirəm.

"Hörmətlə" Tural Həbibullah oğlu Həbilov

Qeydiyyat ünvan:Balaken rayon,Tülü kəndi

Tarix: 16.05.2026-cı il